**İİV (İnsanın İmmunçatışmazlığı Virusu) QİÇS-ə (Qazanılmış İmmunçatışmazlığı Sindromu) səbəb olan infeksiyadır.**
**QİÇS insanın immun sisteminin İİV virusu ilə zədələnməsi nəticəsində meydana çıxan spesifik xəstəlik və hallarla özünü büruzə verir.**

Cədvəldə göstərilən ünvanlarda yerləşən Könüllü Müayinə və Məsləhət məntəqələrində **pulsuz və anonim** İİV-ə qarşı tibbi müayinədən keçmək olar.

### Respublika QİÇS-lə Mübarizə Mərkəzi
Bakı şəhəri, M. Mirqasımov küçəsi, 1/8
**Tel: (012) 510-08-69**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 18:00-dək.

### Bakı İİV-diaqnostika laboratoriyası, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Bakı şəhəri, A. Manaflı küçəsi, 22
**Tel: (012) 421-13-93**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 18:00-dək.

### Sumqayıt Narkoloji Mərkəzi
Sumqayıt şəhəri, Azərbaycan prospekti, 3
**Tel: (018) 655-91-13**
İş rejimi I-VI günlər, saat 9:00-dan 19:00-dək.

### Gəncə İİV-diaqnostika laboratoriyası, Gəncə Şəhər Yoluxucu Xəstəliklər Xəstəxanası
Gəncə şəhəri, M. Xələfov küçəsi, 8
**Tel: (022) 253-53-06**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 19:00-dək.

### Quba İİV-diaqnostika laboratoriyası, Quba Rayon Mərkəzi Xəstəxanası
Quba şəhəri, Fətəli xan küçəsi, 12
**Tel: (023) 335–19–70**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 19:00-dək.

### Lənkəran İİV-diaqnostika laboratoriyası, Lənkəran Rayon Mərkəzi Xəstəxanası
Lənkəran şəhəri, Nizami küçəsi, 67
**Tel: (025) 254-79-32**
**(025) 254-48-39**
**(025) 254-16-64**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 19:00-dək.

### Respublika Narkoloji Mərkəzi
Bakı şəhəri, Zığ şosesi, 13
**Tel: (012) 372-91-88**
**(012) 372-82-44**
**(012) 379-51-19**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 19:00-dək.

### 1 Saylı Şəhər Dəri-Zöhrəvi Dispanseri
Bakı şəhəri, Təbriz Xəlilrza küçəsi, 17
**Tel: (012) 594-35-34**
İş rejimi: I-VI günlər, saat 9:00-dan 19:00-dək.

# İİV haqqında 10 FAKT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

İSİM İctimai Səhiyyə və İslahatlar Mərkəzi
Bakı, AZ1122, H.Zərdabi küç., 96
431 12 72  430 52 85  office@isim.az
www.isim.az

Kitabça "2016-2020-ci illər üçün İİV-infeksiyası ilə mübarizə üzrə Tədbirlər Proqramının icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planı"nın 5.2-ci bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanıb çap edilmişdir.

**1** İİV virusuna yoluxub-yoluxmadığınızı bilmək üçün test etməyiniz həyati vacib addımdır. İİV virusuna yoluxmuş insanların təxminən 40%-i öz infeksion statusundan xəbərsizdirlər.

**2** İİV testi və müalicəsi gizli aparılır. Test etdikdən sonra nəticələr tibb müəssisəsində məxfi qalır və icazəniz olmadan heç kimə İİV statusunuz açıqlanmır.

**3** Test nəticəniz İİV-müsbət olduğunu biləndən sonra nə qədər tez tibbi yardım alsanız, o qədər yaxşıdır. Müntəzəm olaraq dərman preperatlarını qəbul etmək və lazımi tibbi müayinələrdən keçməklə immunçatışmazlığı virusu ilə həyata davam etmək olur.

**4** İİV aşağıdakı yollarla ötürülür:

- yoluxmuş şəxslə müdafiəsiz cinsi (vaginal, anal, oral) əlaqə zamanı
- yoluxmuş qan, yaxud qan komponentlərinin və ya toxumaların köçürülməsi zamanı
- steril olmayan inyeksiya vasitələri (iynə, şpris) və dəridə döymə üçün nəzərdə tutulmuş avadanlıqların istifadəsi zamanı
- hamiləlik, doğuş və döşlə əmizdirmə zamanı

**İİV infeksiyası öpüşməklə, həşəratların dişləməsi zamanı, əllə salamlaşarkən ÖTÜRÜLMÜR.**

**5** Qoruyucu vasitələr (kondomlar) İİV və digər cinsi yolla ötürülən infeksiyaların qarşısını alan effektiv vasitələrdir.

**6** İİV infeksiyasına qarşı peyvənd mövcud deyil. Lakin dərman preparatları qanda virusun miqdarını əhəmiyyətli dərəcədə azaldır və QİCS-in qarşısını alır.

**7** Kombinə edilmiş antiretrovirus terapiyası (ART) bədəndə İİV-in yayılmasının qarşısını alır. Bir cütlükdə İİV-müsbət partnyor ART qəbul edərsə, İİV-mənfi partnyora cinsi yolla ötürülmə ehtimalı 96% azalır.

**8** Anadan uşağa İİV ötürülməsinin aradan qaldırılması mümkündür. İİV-ə yoluxmuş qadınlar ART qəbul etdikləri halda, doğuş və ana südü ilə qidalandırma zamanı virusun anadan uşağa ötürülməsinin qarşısı alınır.

**9** İİV - aktiv formalı vərəmin inkişafı üçün risk faktorlarından biridir. 2015-ci ildə dünyada vərəm diaqnozu olan 10,4 milyon insanın 1,2 milyonunda (11%) İİV-müsbət olduğu təsdiq edilmişdir. Eyni ildə, İİV olan insanlar arasında vərəmdən təxminən 390 min insan dünyasını dəyişib.

**10** Qəsdən İİV infeksiyası ilə yoluxdurma insanlığa qarşı cinayət hesab olunaraq qanunla cəzalandırılır.

**Dünyada 36,7 milyon insan İİV-ə yoluxub.**
**Onların yarısından çoxu qadınlar,**
**təxminən 1,8 milyonu isə uşaqlardır.**